# Ermənilərin soyqırım siyasəti tarixi mənbələrdə




*Tarix elmləri üzrə fəlsəfə doktoru Mahir Qəribovun "Bir əsr boyunca Ermənistan-Azərbaycan münasibətləri (Birinci Dünya Müharibəsi sonlarından günümüzədək)" (2015) sanballı tədqiqat əsərində I Dünya Müharibəsinin sonlarından günümüzədək olan dövr ərzində Ermənistan-Azərbaycan münasibətlərindən bəhs edilir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixinə nəzər salınır və Sovetlər Birliyi dövründə hər iki ölkə arasında olan sosial-iqtisadi əlaqələr elmi-statistik göstəricilərlə əks olunur.*

*Əsərin məzmununu ehtiva edən giriş hissəsini oxuculara təqdim edirik.*

***(əvvəli 21 avqust tarixli sayımızda)***

Gürcü sosialisti Qaribi 1921-ci ildə Tiflisdə nəşr olunmuş "Qızıl kitab" adlı əsərində göstərir: "Tarix göstərmişdir ki, Daşnak partiyası zühur edənə qədər Zaqafqaziyada bütün millətlər və xalqlar mehriban qonşuluq və qardaşlıq şəraitində yaşamışlar. Bu vaxta qədər Qafqazda qanlı ədavət görünməmişdir. Lakin erməni təşkilatlarının gücləndiyi bir zamanda bu xalqlar arasında düşmənçilik toxumu səpilmiş, bir-birinə nifrət hissi oyanmışdır".

Ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasəti 1918-ci ilin əvvəllərindən yenidən başlamış, S. Şaumyan, S. Lalayan, T. Əmiryan, Hamazasp, Andronik və Qazaryanın tabeliyində olan erməni ordu birlikləri silahsız azərbaycanlılara qarşı misli görünməmiş qətliamlar törətmişdilər.

1918-ci ildə ermənilərin törətdikləri vəhşiliklər və qətliamlar rus konsulları və zabitlərindən general Odelişidze, general Nikolayev, general Prjevalski, general Bolkovitinov, general Mayevski, podpolkovnik Tverdoxlebov, doktor Xoroşenko və bir çox başqalarının öz məruzələrində, xatirələrində, teleqram və məktublarında qəti bir şəkildə öz əksini tapmışdır.

Ermənilərin Qafqazda və Şərqi Anadoluda törətdiyi qətllərlə bağlı çoxsaylı ədəbiyyat Türkiyə tarixşünaslığında da mövcuddur. O. Arıman "Çar Rusiyasının Türkiyədəki oyunları" adlı kitabında Rusiya ilə Avropa dövlətlərinin danışıqlar apararaq Osmanlı dövlətini parçalamaq planları və bu istiqamətdəki fəaliyyətlərini göstərmişdir. T.Ataov öz əsərində Osmanlı dövlətinin son dövründə ermənilərin tutduğu vəzifələri, məşğuliyyətləri, sosial statusu təhlil edir və belə qənaətə gəlir ki, onlar bir çox imtiyazlardan istifadə edirdilər. Eyni mövzuda yazan N.Göygöz statistik məlumatlardan istifadə edərək Anadoluda yaşayan erməni əhalisinin say tərkibini göstərmişdir. İ .Parmaqsızoğlu erməni komitələrinin təşkilatlanmasına, onların tədricən ermənilərin bütün həyat sahələrinə müdaxilə etməsinə toxunmuş, komitələrin antitürk məqsədlərini sənədlər əsasında göstərmişdir. Erməni komitələrinin fəaliyyətinə A.Dəlorman da toxunmuşdur. H. Aytəkin fransızların Kipr adasında "Erməni legionu" yaratmasını araşdırmış, legionun türklərə qarşı törətdikləri qırğınları göstərmişdir. Y.Bildirici də əsərində Fransa rəsmi dairələrinin ermənilərə hərtərəfli yardımını, ermənilərin türklərə qarşı törətdikləri əməlləri, Adanada minlərlə müsəlmanın qətlə yetirilməsini sübut etmişdi. F. Dəmiroğlu Van bölgəsində ermənilərin törətdikləri vəhşilikləri təsvir edir. A.Göydəmir ermənilərin Naxçıvan, İğdır və Zəngəzurda törətdikləri vəhşiliklərə diqqət yetirmişdir. M.Kırzıoğlu ermənilərin Qars və ətraflarda törətdikləri vəhşilikləri araşdırmışdır. Prof.dr Azmi Süslü Van, Bitlis, Muş və Qarsda ermənilərin törətdikləri qətlləri tədqiq etmişdir. Süslü türk-erməni əlaqələrinin tarixi inkişafı, türklərin zaman-zaman ermənilərə göstərdiyi diqqət, Sultan II Mehmetin erməni etnosuna etdiyi güzəştləri, hökumətin ermənilərlə bağlı imtiyazların verilməsini, iri ticarət mərkəzlərində mövqe qazanmalarına və digər amillərə toxunmuşdur. Müəllif Osmanlı hökumətinin ermənilərə olan isti münasibətlərin qarşılığı olaraq türk millətinə terrorla, qiyamlarla, üsyanlarla, xəyanətlərlə cavab verildiyini təəssüflə qeyd etmişdir. Müəllif əsərdə müxtəlif dillərdə olan mənbələri araşdırmış, bir sıra gizli qalan, xalqdan gizlədilən məqamlara aydınlıq gətirmişdir.

Uzun müddət Türk Tarix Qurumuna rəhbərlik etmiş, hazırda isə TBMM-in millət vəkili olan prof.dr Yusuf Halaçoğlu da bu problemlə əlaqədər çoxlu sayda tədqiqat işləri aparmış, bir sıra dövlətlərin arxivlərində maraqlı faktları üzə çıxarmışdır. Müəllif "Erməni tehciri" adlı monoqrafiyasında "Erməni məsələsi"ni sistemli şəkildə araşdırmış, I Dünya Müharibəsinə qədərki mərhələdə böyük dövlətlərin Anadolu siyasətində erməni faktorunu tədqiq etmişdir. Əsərdə həmçinin ermənilərin ümumi sayı, terror fəaliyyətləri, sultan hökumətinin köçürmə siyasəti və iri dövlətlərin islahat planları üzərində araşdırmalar aparılmışdır.

Selami Kılıçın "Erməni Məsələsi və Almaniya" adlı irihəcmli monoqrafiyası isə I Dünya müharibəsində Ərzurumda yaşayan almanların durumunu, Almaniyanın ermənilərə olan missionerlik fəaliyyətiərini, erməni üsyanlarının alovlanmasında Almaniyanın rolunu, erməni iddialarının Avropada əsas müdafiəçisi, mənşəcə alman Johannes Lepsiusun fəaliyyətini, müasir dövrdə alman siyasətində erməni məsələsini müxtəlif mənbələr və faktlar əsasında araşdıraraq üzə çıxarmışdır. Əsərdə daha çox arxiv materiallarından istifadə olunmuşdur.

A.Qazigiray erməni terrorunun qaynaqlarını araşdırarkən belə qənaətə gəlir ki, o, dərin köklərə malikdir və arxasında ayrı-ayrı Avropa dövlətləri dayanır. E. İltər erməni terrorçularının arxasında kilsə xadimlərinin dayanmasını sübuta yetirmişdir. Z.Özkan ermənilərin öz məqsədlərinə nail olmaq üçün terrordan bir siyasi vasitə kimi istifadə etmələrini göstərmişdir. Erməni məsələsinin dərin tədqiqatçısı kimi tanınan K.Gürün öz əsərlərində bu məsələnin süni olaraq yaradılmasını, avropalıların Osmanlı dövlətini parçalamaq niyyətlərini və bu yolda ermənilərdən istifadə etdiyini xüsusi vurğulamışdır. Əsərdə müəllif ermənilərin tarixi ərazilərini, dini inanc sistemlərini, fars, ərəb, səlcuq, monqol, osmanlı imperiyaları zamanındakı durumunu tədqiq etmiş, xüsusilə erməni məsələsini daha dərindən öyrənməyə cəhd göstərmişdir.

Avstriya alimi Erix Fayqlın "Kəskin dönüş! Erməni mifomaniyası və həqiqət" adlı sənədlər toplusundan ibarət əsəri olduqca dəyərlidir. Təxminən on iki dildə çap edilmiş əsərdə müəllif ermənilərin soyqırımı iddialarını mif adlandırması və türklərə qarşı ermənilərin iyrənc kampaniyalarını tənqid etmişdir. Müəllif uzun illər ermənilərin mifomaniya xəstəliyinə tutulduğunu vıırğulamaqla bir daha dünya ictimaiyyətinə çatdırmaq istəyir ki, ermənilərin yalan, uydurma vədləri cəfəngiyatdan başqa bir şey deyildir. Burada erməni təcavüzünün pərdəarxası məqamları da araşdırılmışdır. Müəllifin digər bir əsəri də "İpək yolu üzərində Odlar yurdu-Azərbaycan" adlanır. Əsərdə daha çox türk dünyasının mərkəzində yerləşən Azərbaycanın qədim əraziləri, dövlətləri, sərhədləri, tarixi keçmişi haqqında geniş şəkildə məlumat verilir.

A.Kurat XIX və XX əsrin əvvəllərində Türkiyə-Rusiya münasibətlərini dərindən tədqiq etmiş, Rusiyanın Osmanlı torpaqlarını ələ keçirmək üçün ermənilərdən bir vasitə kimi istifadə olunduğunu qeyd etmişdir. İ.Sakarya və S.Sonyel apardıqları tədqiqatlar zamanı aşkar edilmiş tarixi sənədlərin bir daha ermənilərin torpaq iddialarının əsassız olmasını göstərmişlər.

Esat Urasın "Tarixdə ermənilər və erməni məsələsi" adlı kitabı erməni mövzusunu ətraflı araşdıran əsərlər sırasındadır. Əsərdə ermənilərin Anadolu ərazilərinə gəlişi, məskunlaşması, durumu, sosial həyatları, təşkilatlanma səviyyəsi haqqında hərtərəfli məlumatlara rast gəlmək mümkündür. Müəllif əsərdə hadisələrin dünya müharibəsindən sonrakı vəziyyətinə daha çox yer ayırmış, xüsusilə, qondarma erməni soyqırımının 50-ci ildönümü ilə əlaqədar hadisələrin yenidən qızışdırıldığının səbəb və nəticələrini ətraflı şəkildə təhlil etmişdir. Eyni zamanda müəllif əsərdə 1970-ci ildən sonra türk diplomatlarına qarşı erməni terrorunun gizli qalan məqamlarına işıq salmağa çalışmışdır. Məsələyə eyni tərzdə, hərtərəfli yanaşan M.Ökə, həmçinin, II Yıldırım "Erməni məsələsi"nin süni yaradılmaqla "Şərq məsələsi"nin tərkib hissəsi olmasını sübuta yetirmişlər. E.Şahin Trabzon və Batumi konfransları, orada qəbul olunan qərarları ətraflı şərh etmişdir. İki cildlik "Birinci dünya harbinde türk harbi Kafkas cebhesi. 3-cü ordu harekatı" adlı əsərdə hərbi xarakterli materiallar verilmiş, döyüş əməliyyatlarının gedişi geniş şərh edilmişdir.

Avropa müəlliflərinin əsərlərinə diqqət yetirəndə onların da "Erməni məsələsi"nin süni məsələ olması fikrinə gəlməsi görünür. E.Qranvil açıq-aydın yazır ki, bu məsələnin yaradılması Rusiyanın oyunlarından biri idi. Problemin tanınmış tədqiqatçılarından olan Jastin Makkartin ermənilərin əhali sayı baxımından çoxluq təşkil etdikləri iddialarını puça çıxarır. ABŞ-ın Luisvill Universitetinin professoru Jastin Makkartinin "Erməni məsələsi" ilə bağlı araşdırmalarında problemin kökündən araşdırılmasına yeni bir baxış sərgilənməkdədir. Onun "Ölüm və Sürgün" adlı irihəcmli monoqrafiyasında bu problemin meydana gəlməsi, XX əsrin əvvəllərində ermənilərin sosial durumu, əhalinin sayı hökumətin statistik materialları əsasında tədqiq edilmişdir. Müəllif də Osmanlı hökumətinin 1915-ci il hadisələrini faciə yox, özünümüdafiə tədbiri kimi qeyd edir və hökumətin bu addımını təqdir edir.

Tədqiqatçılar P. de Vo və R.Zeydner fransız ordusu tərkibində fəaliyyət göstərən "Erməni legionu"nun vəhşiliklər törətmələrindən, bu vəhşiliklərin dinc türk-müsəlman əhalisinə qarşı yönəlməsindən yazırlar. L.Evans, R.de Noqales öz əsərlərində avropalıların Osmanlı dövlətini bölüşdürməsi planlarından danışır, bu planları həyata keçirmək yollarından biri kimi "erməni məsələsi"nin yaradılmasını bildirirlər.

Türk dünyasının haqq səsinin dünyaya çatdırılmasında misilsiz xidmətlər göstərmiş, çoxsaylı məqalələr müəllifi, ABŞ əsilli hüquqşünas Səmyuel A.Uimzin "Ermənistan-terrorçu "xristian" ölkənin gizlinləri" adlı irihəcmli əsəri böyük əhəmiyyət kəsb edir. İyirmi bir fəsildən ibarət olan əsərdə müəllif Qafqaz və Anadolu regionundakı tarixi prosesləri izləyərkən minilliklərin qaranlıq qatlarına enmiş, beş yüz ildən artıq Osmanlı Türkiyəsinin Şərqi Anadolu hissəsində yerli müsəlmanlarla sülh və əmin-amanlıq şəraitində yaşamış ermənilərin xəyanət və satqınçılıq yolu tutması prosesini soyuqqanlıqla qələmə almışdır. Əsərdə dünyanın müxtəlif ölkələrində həyata keçirdikləri terror aktları, öz ərazilərində apardıqları etnik təmizləmə, din və dövlətin birliyi, erməni kilsəsinin terrorçu-təcavüzkar xisləti və s. məsələlər təfərrüatı ilə araşdırılmışdır. Vaşinqton, London, Paris, Roma, İstanbul, Moskva kimi iri şəhərlərin arxivlərində uzunmüddətli elmi araşdırmalar aparan müəllif cəsarətli şəkildə "cırtdan ölkə"nin gecə-gündüz silahlanaraq bu ölkəyə təmənnasız şəkildə 1 milyard dollarlıq silah-sursat vermiş Rusiyanin və 1992-2001-ci illər ərzində bu ölkəyə 1.4 milyard dollar pul ayırmış ABŞ-ın hesabına Qarabağı işğal etdiyini vurğulaması erməni maraqlarına xidmət edənlərin ünvanına söylənilmiş ən tutarlı faktlardır. Maraqlısı ondan ibarətdir ki, əsər hələ işıq üzü görməmiş müəllifə qarşı erməni təhdidləri başlamış və onu ölümlə hədələmişlər. Kitab çapdan çıxandan bir müddət sonra isə müəllifin müəmmalı şəkildə vəfat etməsi bir daha erməni vandalizminin vəhşi xislətindən xəbər verir.

Erməni mənşəli müəlliflərin yazdıqları kitablara nəzər yetirəndə bu müəlliflərin türklərə olan nifrətləri özünü göstərmişdir. Burada erməni silahlı dəstələrinin dinc türk əhalisinə qarşı apardıqları soyqırımı siyasəti "milli-azadlıq mübarizəsi" kimi göstərilmiş, erməni silahlı dəstələrinin törətdikləri cinayətlər isə böyük bir fəxrlə qələmə alınmışdır. Türklər içərisində cəllad kimi qəbul edilmiş Andranik ermənilərin "milli qəhrəmanı" kimi göstərilmiş və erməni tarixçiləri öz əsərlərində onu tərənnüm etmişlər. K.Aslan "tarixi erməni torpaqlarını" müəyyənləşdirərkən Türkiyə və Azərbaycanın əzəli torpaqlarını göstərmişdir. Osmanlı dövlətinə qarşı qiyamlar S.Avakyanın, C.Kirakosyanın əsərlərində əks olunmuşdur.

Ermənilərin Rusiya və Avropa dövlətləri ilə əlaqələrini B.Boryan, E.Yesayan tədqiq etmişlər. A.Xatisyan, R.Hovanesyan öz əsərlərində "Ermənistan dövləti"nin yaradılmasını əks etdirmiş, S.Karapetyan erməni-bolşevik əlaqələrini geniş şərh etmişdir. A.Arutyunyan və O.Korqanov erməni hərbi hissələrinin I Dünya Müharibəsində iştirakını təsvir etmişlər. Həmçinin, tədqiqatda ümumi xarakterli əsərlərdən istifadə edilmişdir ki, onlar da əsasən, XX əsrin əvvəllərində beynəlxalq siyasi əlaqələr, bu əlaqələrdə Türkiyənin yeri və rolu, Rusiyanın xarici siyasəti, Cənubi Qafqazın durumu, "Şərq məsələsi"nin tarixinə həsr edilib.

Birinci Dünya Müharibəsinin sonunda erməni daşnak birləşmələri tərəfindən İrəvan, Eçmiədzin, Zəngəzur, Naxçıvan, Şərur və Dərələyəz qəzalarının kəndlərində azərbaycanlılara qarşı yüzlərlə qanlı cinayətlər törətdilər.

Birinci Dünya Müharibəsinin Cənubi Azərbaycanda yaratdığı mürəkkəb şəraitdən və qarışıqlıqdan istifadə edən erməni silahlı dəstələri Xoy, Salmas, Soyuqbulaq və bu şəhərlərin ətraf kəndlərinə hücum edərək bazar və evləri çapıb-talamağa, günahsız və silahsız Azərbaycan türklərini böyükdən-kiçiyə görünməmiş vəhşiliklə qırmağa başladılar. Belə qırğınlar Urmiyada xüsusi qəddarlıqla həyata keçirilirdi. Yalnız türk ordu hissələrinin həmin bölgəyə daxil olması buradakı kəndlərin, Urmiya və b. şəhərlərin əhalisinin kütləvi şəkildə qətlə yetirilməsinin qarşısını aldı. Lakin türk qoşunları bu yerlərdən getdikdən sonra Cənubi Azərbaycanın Türkiyə və İraqla həmsərhəd bölgələrində ermənilər, aysorlar azərbaycanlıları yenidən qırmağa başladılar. Bu qırğınlar bolşevik hökuməti tərəfindən rus hərbi hissələrinin çox pərakəndə şəkildə 1918-ci ilin əvvəlində İrandan çıxarıldığı vaxt çox dramatik və faciəli şəkil almışdı. Aydındır ki, Birinci Dünya Müharibəsinin iştirakçısı olan böyük dövlətlər Şərq ölkələrini yenidən nüfuz dairələrinə bölmək məsələsində vəhşi erməni quldurlarını, həmçinin aysorları və kürdləri öz əllərində alətə çevirmişdilər və onlardan istədikləri kimi istifadə edirdilər. Rus hərbi hissələri Cənubi Azərbaycanı tərk etdikdən sonra ingilislər bu yerlərə öz xüsusi hərbi dəstələrini göndərdilər. 1918-ci ilin baharınadək onlar Zəncan, Miyanə, Xoy və Urmiyanı ələ keçirdilər. Eyni zamanda Cənubi Azərbaycanın şimal-qərbində bu dövlətlərin təhrikilə ermənilər azərbaycanlılara qarşı əsl mənada soyqırımı həyata keçirirdilər. Yalnız Urmiya bölgəsində ermənilər 150 min müsəlman əhalini, qoca-cavan, qadın və uşaqları, Xoy bölgəsində isə 50 min Azərbaycan əhalisini qətlə yetirmişdilər.

**(davamı növbəti saylarımızda)**